# XIX ƏSRİN SONLARI XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA TEXNİKİ KİTABXANALARIN FƏALİYYƏTİ

**Günay Musayeva**

*BDU, Kitabxanaşünaslıq kafedrasının magistrantı*

Respublikamızda fəaliyyət göstərən kitabxana şəbəkələrindən biri də texniki kitabxana şəbəkəsidir. Texniki kitabxanalar müstəqil sistem kimi fəaliyyət göstərirlər. Texniki kitabxanaların qarşısında duran əsas vəzifə elmi-texniki ədəbiyyatın təbliğində fəal iştirak etməkdən, mühəndis-texniki işçilərin, sənaye sahəsində çalışanların informasiya tələbatını ödəməkdən, texniki kitabxana şəbəkəsinə metodik rəhbərlikdən və eyni zamanda bu şəbəkəni daha da inkişaf etdirməkdən ibarətdir.

Respublikamızda texniki kitabxanalar XIX əsrin sonu XX əsrin əvvəllərində meydana gəlmişdir. Bu kitabxanaların meydana gəlməsinin ən başlıca səbəblərindən biri XIX əsrin ikinci yarısında Azərbaycanda neft sənayesinin inkişafı ilə əlaqədar olmuşdur. Qapalı xarakter daşıyan bu kitabxanalar ancaq daxil olduğu müəssisə və təşkilatların əməkdaşlarına xidmət göstərirdilər. 1903-cü ildə Bakı fəhlələrinin tələbi ilə Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Ağşəhər kitabxanası yaradılmışdır. Ağşəhər kitabxana-qiraətxanası geniş, işıqlı binada fəaliyyət göstərməyə başlamışdır. Kitabxananın fondunda olan və oxuculara tövsiyyə edilən kitablar elm sahələri üzrə düzülmüşdür və belə siyahıların olması oxuculara kitabxanadan istifadə etmək, lazım olan ədəbiyyatı tapmaqda kömək göstərirdi. Bakı Neft Sənayeçiləri Qurultayı Şurasının Bayıl (Bibiheybət) kitabxanası XX əsrin əvvəllərində fəaliyyət göstərmişdir. 1904-cü ildə Neft Sənayeçiləri Qurultayı Şurasının kitabxanaları içərisində Balaxanı kitabxanasının fəaliyyəti daha çox diqqəti cəlb edir.

XX əsrin 20-ci illərində ölkəmizdə texniki kitabxanaların təşkili böyük çətinliklərlə üzləşdi. Ölkədəki mövcud siyasi vəziyyət, maliyyə qıtlığı, kütləvi savadsızlıq və başqa səbəblər kitabxana işinin inkişafına mənfi təsir göstərmişdir. Respublikamızda 1924-cü ildə neft sənayesi müəssisələrində "Neftçilər" klubu təşkil edilmiş, "Azərneft"in nəzdində fəaliyyət göstərən texniki kitabxanalar bu müəssisəyə həvalə edilmişdir.

30-cu illərdə ölkədə ağır sənayenin,əsasən neft və maşınqayırma sənayesinin inkişafı zavod və fabriklərin meydana gəlməsi nəticəsində





texniki ədəbiyyata olan tələbat daha da artmışdır. Texniki ədəbiyyata olan tələbat texniki kitabxanaların yaranmasına şərait yaratmışdır.Hazırda respublikada bir sıra texniki kitabxanalar fəaliyyət göstərir ki,onlara Respublika Elmi-Texniki Kitabxanası metodik rəhbərlik göstərir.

Respublikamızda bütün texniki kitabxanaların təşkilati-metodik mərkəzi kimi Respublika Elmi-Texniki Kitabxanası fəaliyyət göstərdiyi uzun illər ərzində böyük tarixi yol keçmiş,kitabxana tariximizi özünün təcrübəsi ilə zənginləşdirmişdir.